AcademyGate Publishing
p-ISSN 2790-0029; e-ISSN 2790-0037

# GEOGRAPHY AND DIPLOMACY: THE INFLUENCE OF BORDERS ON POLITICS

**Ramila Aliyeva**[1]
**Parviz Suratzade**[2]

**UDC:** 327; 911.3
**LBC:** 66.4
**HoS:** 50
**DOI:** 10.33864/2790-0037.2025.v6.i1.82-91

**Keywords:**

Geography, Diplomacy, Geopolitics, International relations, Interstate relations, Strategic positions, Energy policy, Environmental diplomacy, Climate change, Natural resources, border conflicts

## ABSTRACT

This article explores the complementary and reinforcing relationship between geography and diplomacy. Geography, borders, natural resources, and strategic position shape states' diplomatic policies and international relations. Geopolitics, especially energy security between states, border disputes, and acquisition of natural resources play an important role in regional cooperation issues. Thus, new energy corridors, trade routes, and environmental issues have become important topics in contemporary diplomacy. Climate change and ecological diplomacy also create new areas of cooperation between states and influence international relations. Geopolitics is also a major factor in strategic decision-making between states, ensuring economic development, and protecting security. Such relations are also important for conflict resolution and regional stability. The role of geography in diplomacy remains an important factor that states should analyze to protect their interests and gain a strong position at the international level. As a result, the close relationship between geography and diplomacy will play an important role in the future development of global politics and diplomatic relations.

[1] PhD in Geography,
National Defense University, teacher; Baku, Azerbaijan (corresponding author)
E-mail: ramila.ali08@gmail.com
https://orcid.org/0009-0008-7152-3489
[2] National Defense University, teacher; Baku, Azerbaijan
E-mail: parvizsurat@gmail.com
https://orcid.org/0009-0003-5446-6738
**To cite this article:** Aliyeva, R., & Suratzade, P. [2025]. Geography and Diplomacy: The Influence of Borders on Politics. *History of Science journal*, *6*(1), pp.82-91.
https://doi.org/10.33864/2790-0037.2025.v6.i1.82-91

***Article history:***
*Received: 11.12.2024*
*Accepted: 28.02.2025*

**Copyright:** © 2025 by AcademyGate Publishing. This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

AcademyGate Publishing
p-ISSN 2790-0029; e-ISSN 2790-0037

# COĞRAFİYA VƏ DİPLOMATİYA: SƏRHƏDLƏRİN SİYASƏTƏ TƏSİR DAİRƏSİ

**Ramilə Əliyeva**[1]
**Pərviz Surətzadə**[2]

**UOT:** 327; 930.22.
**KBT:** 66.4
**HoS:** 50
**DOI:** 10.33864/2790-0037.2025.v6.i1.82-91

**Açar sözlər:**

Coğrafiya, diplomatiya, Geosiyasət, Beynəlxalq münasibətlər, Dövlətlərarası əlaqələr, Strateji mövqelər, Enerji siyasəti, Ekoloji diplomatiya, İqlim dəyişikliyi, Təbii sərvətlər, Sərhəd münaqişələri

## ANNOTASİYA

Bu məqalədə coğrafiya və diplomatiyanın bir-birini tamamlayan və gücləndirən münasibəti araşdırılır. Coğrafi mövqelər, sərhədlər, təbii sərvətlər və strateji mövqelər dövlətlərin diplomatik siyasətini və beynəlxalq əlaqələrini formalaşdırır. Geosiyasət, xüsusilə dövlətlər arasında enerji təhlükəsizliyi, sərhəd mübahisələri, təbii resursların əldə edilməsi regional əməkdaşlıq məsələlərində böyük rol oynayır. Belə ki, yeni enerji dəhlizləri, ticarət yolları və ekoloji məsələlər müasir diplomatiyada mühüm mövzulara çevrilib. İqlim dəyişikliyi və ekoloji diplomatiya da dövlətlər arasında yeni əməkdaşlıq sahələri yaradır və beynəlxalq münasibətlərə təsir edir. Geosiyasət, həmçinin dövlətlər arasında strateji qərarların qəbul edilməsində, iqtisadi inkişafın təmini və təhlükəsizliyin qorunmasında da əsas amillərdən biridir. Bu cür əlaqələr, həm də münaqişələrin həlli və regional stabillik üçün vacibdir. Coğrafiyanın diplomatiyadakı rolu, dövlətlərin öz maraqlarını qorumaq və beynəlxalq səviyyədə güclü mövqeyə malik olmaq üçün təhlil etməli olduqları əhəmiyyətli bir faktor olaraq qalır. Nəticə olaraq, coğrafiya və diplomatiya arasındakı sıx əlaqə, beynəlxalq siyasətin və diplomatik münasibətlərin gələcək inkişafında mühüm rol oynayacaq.

[1] Coğrafiya üzrə fəlsəfə doktoru,
Milli Müdafiə Universiteti, müəllim; Bakı, Azərbaycan (məsul müəllif)
E-mail: ramila.ali08@gmail.com
https://orcid.org/0009-0008-7152-3489
[2] Milli Müdafiə Universiteti, müəllim; Bakı, Azərbaycan
E-mail: parvizsurat@gmail.com
https://orcid.org/0009-0003-5446-6738
**Məqaləyə istinad:** Əliyeva, R. & Surətzadə, P. [2025]. Coğrafiya və Diplomatiya: Sərhədlərin Siyasətə Təsir Dairəsi. *History of Science jurnalı*, 6(1), səh.82-91.
https://doi.org/10.33864/2790-0037.2025.v6.i1.82-91

***Məqalənin tarixçəsi:***
*Məqalə redaksiyaya daxil olmuşdur: 11.12.2024*
*Təkrar işlənməyə göndərilmişdir: 13.01.2025*
*Çapa qəbul edilmişdir: 28.02.2025*

**Copyright:** © 2025 by AcademyGate Publishing. This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

AcademyGate Publishing
p-ISSN 2790-0029; e-ISSN 2790-0037

# ГЕОГРАФИЯ И ДИПЛОМАТИЯ: ВЛИЯНИЕ ГРАНИЦ НА ПОЛИТИКУ

**Рамила Алиева**[1]
**Парвиз Суратзаде**[2]

**УДК:** 327; 911.3
**ББК:** 66.4
**HoS:** 50
**DOI:** 10.33864/2790-0037.2025.v6.i1.82-91

**Ключевые слова:**

География, Дипломатия, Геополитика, Международные отношения, Межгосударственные отношения, Стратегические позиции, Энергетическая политика, Экологическая дипломатия, Изменение климата, Природные ресурсы, Приграничные конфликты

## АННОТАЦИЯ

В этой статье исследуются взаимодополняющие и укрепляющие отношения между географией и дипломатией. Географическое положение, границы, природные ресурсы и стратегическое положение формируют дипломатическую политику и международные отношения государств. Геополитика, особенно энергетическая безопасность между государствами, пограничные споры, приобретение природных ресурсов играют важную роль в вопросах регионального сотрудничества. Таким образом, новые энергетические коридоры, торговые пути и экологические проблемы стали важными темами современной дипломатии. Изменение климата и экологическая дипломатия также создают новые области сотрудничества между государствами и влияют на международные отношения. Геополитика также является одним из основных факторов принятия стратегических решений между государствами, обеспечения экономического развития и защиты безопасности. Такие отношения также важны для разрешения конфликтов и региональной стабильности. Роль географии в дипломатии остается важным фактором, который государства должны проанализировать, чтобы защитить свои интересы и занять сильные позиции на международном уровне. В результате тесная связь между географией и дипломатией будет играть важную роль в будущем развитии международной политики и дипломатических отношений.

[1] Кандидат географических наук,
Национальный университет обороны, преподаватель; Баку, Азербайджан (ответственный автор)
E-mail: ramila.ali08@gmail.com
https://orcid.org/0009-0008-7152-3489
[2] Национальный университет обороны, преподаватель; Баку, Азербайджан
E-mail: parvizsurat@gmail.com
https://orcid.org/0009-0003-5446-6738
**Цитировать статью:** Алиева, Р., & Суратзаде, П. [2025]. География и Дипломатия: Влияние Границ на Политику. *Журнал History of Science*, *6*(1), с.82-91.
https://doi.org/10.33864/2790-0037.2025.v6.i1.82-91

***История статьи:***
*Статья поступила в редакцию: 11.12.2024*
*Отправлена на доработку: 13.01.2025*
*Принята для печати: 28.02.2025*

**Copyright:** © 2025 by AcademyGate Publishing. This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

## *1.Giriş*

Dövlətlərarası münasibətlər tarix boyu müxtəlif amillərin təsiri altında formalaşıb. Bu amillər arasında coğrafiya xüsusi yer tutur. Coğrafi mövqe, sərhədlər, iqlim, təbii resurslar kimi faktorlar təkcə dövlətlərin daxili inkişafını deyil, həm də onların xarici siyasətini və diplomatik münasibətlərini formalaşdırır. Diplomatiya isə dövlətlərin bu coğrafi şərtlərdən irəli gələn problemləri və imkanları nəzərə alaraq beynəlxalq arenada maraqlarını qorumaq və inkişaf etdirmək üçün istifadə etdiyi əsas vasitələrdən biridir.

Qeyd etmək lazımdır ki, geosiyasət anlayışı məhz bu iki sahənin – coğrafiya və diplomatiyanın kəsişməsində yaranır. Eyni zamanda, geosiyasət coğrafi amillərin siyasi qərarlara və diplomatik yanaşmalara necə təsir etdiyini öyrənir. Tarix boyunca coğrafi şərait dövlətlərin güc balansında əhəmiyyətli rol oynayıb. Buna misal olaraq, dəniz yollarına nəzarət edən dövlətlər ticarətdə üstünlük qazanmasını, enerji resurslarına malik olan ölkələrin isə diplomatik müzakirələrdə güclü mövqeyə sahib olmalarını göstərə bilərik.

Tarixi dövrlərə nəzər salsaq coğrafiya dövlətlərarası münasibətlərin formalaşmasında və inkişafında həlledici amillərdən biri olmuşdur. Coğrafi mövqelər, təbii sərvətlər və iqlim şəraiti dövlətlərin iqtisadi, siyasi və hərbi gücünü müəyyən edən əsas faktorlar kimi çıxış etmişdir. Bu səbəbdən, diplomatik münasibətlər də məhz bu coğrafi reallıqlar üzərində qurulmuşdur.

Qədim dövrlərdə dövlətlərin xarici siyasəti çox vaxt onların coğrafi mövqeyi ilə sıx bağlı idi. Mesopotamiya və Misir mədəniyyəti, böyük çay vadilərində yerləşdiyindən iqtisadiyyatlarını su resursları və münbit torpaqlar üzərində qurmuşlar. Bu coğrafi üstünlüklər həmin bölgələri strateji hədəfə çevirmiş, digər dövlətlər ilə ticarət və diplomatik əlaqələri zəruri etmişdir. Bu dövrdə diplomatiyanın əsas vəzifəsi sərhəd mübahisələrinin həlli və ticarət yollarının təhlükəsizliyini təmin etmək idi.

Orta əsrlərdə isə coğrafiya diplomatik strategiyaların mərkəzində idi. Dəniz yollarının və ticarət limanlarının əhəmiyyəti artdıqca, bu yerlərə nəzarət edən dövlətlər güclü diplomatik əlaqələr qurmaq məcburiyyətində qaldılar. Xüsusilə Venesiya və Genuya kimi şəhər-dövlətlər, Aralıq dənizindəki ticarət üstünlüklərini qorumaq üçün geniş diplomatik şəbəkələr yaratmışlar. Bu dövrdə həmçinin resurslar uğrunda mübarizə artdı. Avropada ərazi müharibələri və sərhəd mübahisələri daha çox diplomatik fəaliyyətlərə səbəb oldu. Müqavilələr və evlilik ittifaqları bu coğrafi mübarizələrin həllində geniş istifadə edilirdi. 15-16-cı əsrlərdə coğrafi kəşflər beynəlxalq münasibətlərin mahiyyətini dəyişdi. Yeni qitələrin kəşfi Avropa dövlətləri arasında ticarət və müstəmləkəçilik uğrunda rəqabəti gücləndirdi. Bu dövrdə diplomatiyanın əsas vəzifələrindən biri, müstəmləkə torpaqlarının və ticarət marşrutlarının bölüşdürülməsində razılıq əldə etmək idi. Tordesilyas Müqaviləsi (1494), İspaniya və Portuqaliya arasında coğrafi sərhədləri müəyyən edən əlamətdar diplomatik razılaşmalardan biridir. [8]

19-cu əsrdən etibarən artıq geosiyasət diplomatiyanın ayrılmaz bir hissəsinə çevrildi. Halford Mackinder və Alfred Mahan kimi nəzəriyyəçilər coğrafiyanın qlobal güc balansına təsirini vurğuladılar. Mackinderin "Heartland" nəzəriyyəsi buna bariz nümunə ola bilər. O, Avrasiya bölgəsinin strateji əhəmiyyətini əsaslandıraraq, bu ərazini nəzarət edən dövlətin qlobal güc mərkəzinə çevrilə biləcəyini iddia edirdi. [9]

Müasir dövrdə coğrafi mövqelər də diplomatik münasibətlər də əhəmiyyətini qoruyub saxlayır. Avrasiya və Arktika bölgələri enerji resurslarına görə xüsusi diplomatik müzakirə mövzularına çevrilmişdir. Coğrafiya tarix boyu dövlətlərin diplomatik fəaliyyətlərinə və xarici siyasətlərinə istiqamət vermişdir. Dövlətlərin strateji coğrafi mövqeləri və təbii resursları onlara həm üstünlük vermiş, həm də çətinliklər gətirmişdir. Beləliklə, coğrafiya ilə diplomatiyanın qarşılıqlı əlaqəsi tarixən qlobal siyasətin formalaşmasında mühüm rol oynamışdır. [1]

## *2.Diplomatiya, geosiyasi faktor və strategiyalar*

Geosiyasi faktorlar dövlətlərin xarici siyasət və diplomatik münasibətlərində həlledici rol oynayır. Coğrafi mövqe, sərhədlərin təyini, təbii resursların mövcudluğu və iqlim şəraiti kimi faktorlar dövlətlərin güc balansında üstünlük əldə etməsinə və ya çətinliklərlə qarşılaşmasına səbəb olur. Bu hissədə sərhədlərin müəyyənləşməsi, ərazi münaqişələri, iqlim və strateji mövqelərin diplomatik qərarlara necə təsir etdiyini araşdıracağıq.

Qeyd etmək lazımdır ki, sərhədlər dövlətlərin suverenliyini və ərazi bütövlüyünü müəyyən edən əsas elementlərdəndir. Lakin sərhədlərin müəyyənləşməsi tarixi prosesdə çox vaxt münaqişələrə yol açmışdır. Coğrafi sərhədlər təbii maneələr (çaylar, dağlar) və ya siyasi razılaşmalar əsasında çəkilsə də, bir çox hallarda bu sərhədlər dövlətlərin maraqlarına və ya etnik qrupların məskunlaşdırılmasına uyğun gəlmir. Bu, ərazi münaqişələrinə və sərhəd gərginliklərinə səbəb olur. Buna nümunə olaraq Kəşmir, İsrail-Fələstin münaqişəsini göstərə bilərik. **Kəşmir münaqişəsi** Hindistan və Pakistan arasında sərhəd məsələlərindən qaynaqlanır. Strateji əhəmiyyəti yüksək olan bu regionda davam edən münaqişə diplomatik danışıqlar və vasitəçilik səylərinə baxmayaraq, həll olunmamış qalır. **İsrail-Fələstin münaqişəsi** coğrafi sərhədlərin və ərazi mübahisələrinin diplomatik müzakirələrdə əsas mövzu olduğu digər bir nümunədir. Sərhəd mübahisələri çox vaxt diplomatik əlaqələrin zəifləməsinə, bəzən isə müharibələrə yol açır. Buna baxmayaraq, diplomatiya sərhəd münaqişələrinin həlli üçün əsas vasitə olaraq qalır. Diplomatik vasitəçilik və beynəlxalq müqavilələr vasitəsilə sərhəd problemlərinin həllinə nail olunması mümkündür. Məsələn, **Camp David Sazişi** Misir və İsrail arasında uzunmüddətli ərazi mübahisəsini diplomatik yolla həll edən bir nümunədir.

Geosiyasi strategiyalar dövlətlərin coğrafi mövqelərinə əsaslanaraq xarici siyasətlərin formalaşdırılmasına xidmət edir. Coğrafi mövqe bir dövlətin beynəlxalq arenada hansı rolu oynayacağını və hansı diplomatik vasitələrdən istifadə edəcəyini müəyyənləşdirir. Bu, həm regional, həm də qlobal səviyyədə müxtəlif diplomatik yanaşmaların yaranmasına səbəb olur. [10]

Dövlətlərin coğrafi mövqeyi onların strateji maraqlarını və xarici siyasət hədəflərini birbaşa müəyyən edir. Bəzi dövlətlər strateji yolların kəsişməsində yerləşməklə, beynəlxalq ticarət və nəqliyyatda mühüm rol oynayır, digərləri isə təbii sərvətlərə və ya vacib coğrafi keçidlərə nəzarət edir. Bunun nəticəsində dövlətlər öz xarici siyasətlərini bu üstünlüklərə uyğun şəkildə tənzimləyirlər. Dənizə çıxışı olan dövlətlər beynəlxalq ticarətdə üstün mövqeyə malikdirlər. Məsələn: **Böyük Britaniya**, tarixən dəniz gücü statusunu qoruyaraq geniş müstəmləkə imperiyası qurmuşdur. Britaniyanın coğrafi mövqeyi onun qlobal diplomatik münasibətlərdə dəniz nəqliyyatına əsaslanan strategiyalarını dəstəkləyirdi. **Çin** hazırda **"Bir Kəmər, Bir Yol"** təşəbbüsü ilə dəniz və quru ticarət yollarını inkişaf etdirərək öz geosiyasi mövqeyini gücləndirir.

Bəzi dövlətlər coğrafi mövqelərinə görə diplomatik üstünlüklərə malikdirlər. Dəniz yollarına, boğazlara və strateji keçidlərə nəzarət edən dövlətlər beynəlxalq ticarətdə və hərbi-strateji münasibətlərdə güclü mövqe tuturlar. Məsələn: **Türkiyə**, Bosfor və Dardanel boğazlarına nəzarət edərək Qara dəniz və Aralıq dənizi arasında strateji bir keçid nöqtəsi kimi çıxış edir. **Panama** və **Süveyş kanalları** beynəlxalq ticarət yollarında əsas nəqliyyat arteriyalarıdır və bu ərazilərə nəzarət edən dövlətlər diplomatik üstünlük əldə edirlər. Bu cür strateji mövqelər dövlətlərə həm iqtisadi, həm də təhlükəsizlik baxımından əhəmiyyətli üstünlüklər verir.

İqlim, təbii sərvətlər və strateji mövqelər diplomatik siyasətdə böyük təsirə, rola malikdir. Belə ki, iqlim, xüsusilə iqlim dəyişikliyi, müasir dövrdə diplomatik münasibətlərdə mühüm yer tutur. Qlobal istiləşmə, dəniz səviyyəsinin yüksəlməsi və resursların tükənməsi kimi problemlər dövlətləri ekoloji diplomatiyaya yönəldir. İqlim dəyişikliyi ilə mübarizə aparmaq üçün beynəlxalq razılaşmalar, məsələn, **Paris İqlim**

**Sazişi**, diplomatik səylərin nəticəsidir. Bundan əlavə olaraq, Arktika bölgəsi iqlim dəyişikliyi ilə əlaqədar yeni diplomatik müzakirələrə can atır. Əriyən buzlar bu bölgədə yeni ticarət yollarının açılmasına və enerji resurslarının yaranmasına imkan yaradır, lakin bu da müxtəlif dövlətlər arasında mübahisələrə səbəb olur.

Təbii sərvətlər, xüsusən enerji mənbələri, diplomatik münasibətlərin formalaşmasında əsas amillərdən biridir. Neft, qaz və digər strateji resurslara malik olan dövlətlər bu sərvətlərdən xarici siyasətlərində bir vasitə kimi istifadə edirlər. Məsələn: **Yaxın Şərq** ölkələri neft ehtiyatlarına görə qlobal siyasətdə mühüm diplomatik mövqe tuturlar. **Rusiya** qaz ehtiyatlarını Avropa ilə münasibətlərində siyasi təzyiq vasitəsi kimi istifadə edir. Təbii sərvətlərə malik olmayan dövlətlər isə bu resursların təchizatını təmin etmək üçün enerji diplomatiyasına üstünlük verirlər. Bu çərçivədə enerji dəhlizlərinin və kəmərlərinin təhlükəsizliyi də mühüm diplomatik müzakirə mövzularına çevrilir.

Beləliklə, geosiyasi faktorlar- sərhədlər, iqlim, təbii resurslar və strateji mövqelər dövlətlərin diplomatik siyasətlərinə əhəmiyyətli dərəcədə təsir edir. Həm tarixi, həm də müasir dövrdə bu faktorlar beynəlxalq münasibətlərin əsasını təşkil edir və diplomatik qərarların formalaşmasında mühüm rol oynayır. Geosiyasət dövlətlər arasında rəqabəti artırsa da, eyni zamanda, diplomatik həll yollarının və beynəlxalq əməkdaşlığın vacibliyini də ön plana çıxarır. [4]

### *3.Regional diplomatiya: coğrafiyanın rol oynadığı bölgələr*

Regional diplomatiya coğrafi amillərə əsaslanaraq müəyyən bölgələrdə dövlətlərin qarşılıqlı fəaliyyətlərini tənzimləyən siyasətlər toplusudur. Coğrafi mövqelər, sərvətlər və regional rəqabətlər bu cür diplomatik strategiyaların formalaşmasında mühüm rol oynayır.

**Avrasiyanı geosiyasətin mərkəzi kimi nəzərdən keçirə bilərik.** Avrasiya qitəsi strateji baxımdan qlobal geosiyasətin mərkəzlərindən biri hesab olunur. Bölgənin geniş ərazisi, enerji resursları və ticarət yolları burada geosiyasi rəqabəti artırır [5]. **Rusiya** və **Çin** Avrasiya məkanında təsir dairələrini genişləndirmək üçün müxtəlif regional təşkilatlar, o cümlədən **Şanxay Əməkdaşlıq Təşkilatı** vasitəsilə diplomatik əlaqələrini gücləndirirlər. Avropa İttifaqı və NATO isə bu bölgədə sabitliyi qorumaq və öz təsirini artırmaq üçün regional diplomatiya həyata keçirirlər. Cənub-Şərqi Asiya, xüsusilə **Cənubi Çin Dənizi**, ticarət yolları və dəniz sərhədləri ilə bağlı mübahisələrə görə geosiyasi baxımdan əhəmiyyətlidir. **Çin** bu bölgədə öz mövqeyini gücləndirmək üçün diplomatik və hərbi tədbirlər görür, lakin **ASEAN** ölkələri bu təsirə qarşı tarazlıq yaratmaq məqsədilə birlikdə hərəkət edirlər [7].

**Arktikaya yeni geosiyasi məkan kimi baxa bilərik.** Arktika iqlim dəyişikliyi səbəbindən son illərdə xüsusi diplomatik əhəmiyyət qazanmışdır. Əriyən buzlar yeni ticarət yolları və enerji resursları üçün əlçatanlıq yaradır. **Rusiya**, **ABŞ**, **Kanada**, **Norveç** və **Danimarka** Arktika bölgəsindəki sərvətlər və nəqliyyat marşrutları üzərində nəzarət uğrunda rəqabət aparır. Arktika Şurası bu bölgədə diplomatik əməkdaşlıq və münaqişələrin qarşısını almaq üçün platforma rolunu oynayır.

**Yaxın Şərq isə enerji diplomatiyası və münaqişələr nöqteyi-nəzərindən diqqəti çəkir.** Yaxın Şərq zəngin neft və qaz ehtiyatlarına görə qlobal enerji diplomatiyasında əsas regionlardan biridir. **Səudiyyə Ərəbistanı**, **İran** və **Qətər** kimi ölkələr enerji resurslarını xarici siyasət vasitəsi kimi istifadə edirlər. Bölgədəki ərazi münaqişələri və dini ziddiyyətlər regional diplomatiyanı daha mürəkkəb edir. Beynəlxalq vasitəçilər, məsələn, BMT bu münaqişələrin həllində mühüm rol oynayır.

Dövlətlərin xarici siyasət strategiyaları və regional diplomatiyası coğrafi amillərlə sıx şəkildə bağlıdır. Coğrafi mövqelər dövlətlərə strateji üstünlük versə də, bu üstünlüklərin səmərəli diplomatik yollarla istifadə edilməsi qlobal güc balansında əsas rol oynayır.

Geosiyasi strategiyalar həm rəqabət, həm də əməkdaşlıq mühitində inkişaf edir və diplomatiya bu proseslərin tənzimləyici aləti kimi çıxış edir [3].

***4.Müasir diplomatiyada coğrafiyanın yeni meydanları***

Müasir dövrdə coğrafi faktorlar yeni meydanlarda diplomatik fəaliyyətlərin formalaşmasına səbəb olur. İqlim dəyişikliyi, ekoloji problemlər, yeni nəqliyyat dəhlizləri və enerji resurslarına nəzarət kimi məsələlər dövlətlərarası münasibətlərin və beynəlxalq əməkdaşlığın əsas mövzularına çevrilmişdir. Bu bölümdə müasir diplomatiyada coğrafiyanın iki əsas sahədəki yeni meydanlarını – **iqlim dəyişikliyi və ekoloji diplomatiya** ilə **nəqliyyat dəhlizləri və enerji siyasətlərini** təhlil edəcəyik.

**İqlim dəyişikliyi** müasir dövrdə diplomatiyanın ən aktual məsələlərindən birinə çevrilmişdir. Qlobal istiləşmə, ekstremal hava hadisələri, dəniz səviyyəsinin yüksəlməsi və təbii resursların tükənməsi dövlətlərin milli təhlükəsizliyi və iqtisadiyyatlarına birbaşa təsir edir. Bu problemlərin həlli üçün beynəlxalq əməkdaşlıq və diplomatik razılaşmalar həyati əhəmiyyət daşıyır [6].

***5.Ekoloji diplomatiyanın əsas sütunları***

***5.1.Paris İqlim Sazişi (2015)***

Bu saziş iqlim dəyişikliyi ilə mübarizədə beynəlxalq diplomatiyanın ən böyük uğurlarından biridir. Sazişin əsas məqsədi qlobal temperatur artımını 1.5-2°C ilə məhdudlaşdırmaqdır. Dövlətlər karbon emissiyalarını azaltmaq, yenilənə bilən enerji mənbələrinə keçid etmək və ekoloji davamlılıq üçün birgə fəaliyyət göstərmək öhdəliyi götürürlər.

***5.2.COP (Conference of Parties) Görüşləri***

BMT-nin İqlim Dəyişikliyi Çərçivə Konvensiyası çərçivəsində keçirilən COP sammitləri ölkələrin ekoloji məsələlərdə birgə hərəkət etməsi üçün mühüm platforma rolunu oynayır.

***5.3.Ekoloji münaqişələrin həlli***

İqlim dəyişikliyi su resursları və kənd təsərrüfatı sahələrinə təsir göstərərək dövlətlər arasında münaqişələrə səbəb ola bilər. Məsələn, **Nil çayı** hövzəsindəki su resurslarının bölüşdürülməsi ilə bağlı mübahisələr Misir, Efiopiya və Sudan arasında diplomatik gərginlik yaradır. Ekoloji diplomatiya bu cür münaqişələrin həllində mühüm rol oynayır.

***5.4.Arktika***

Ekoloji diplomatiya və resurslar. İqlim dəyişikliyinin təsiri ilə Arktika bölgəsində buzların əriməsi təkcə ekoloji məsələləri deyil, həm də iqtisadi və strateji maraqları ön plana çıxarır. Arktikada yeni ticarət yollarının açılması və enerji resurslarının çıxarılması beynəlxalq diplomatiyanın diqqət mərkəzindədir. Arktika Şurası, bu bölgədəki dövlətlər arasında ekoloji və iqtisadi məsələlərin həlli üçün diplomatik platforma təmin edir.

***6.Yeni nəqliyyat dəhlizləri və enerji siyasətləri***

**Yeni nəqliyyat dəhlizləri və enerji siyasətlərinə nəzər salsaq görərik ki,** nəqliyyat dəhlizləri və enerji siyasətləri müasir diplomatiyanın digər mühüm istiqamətləridir. Dövlətlər yeni ticarət yolları və enerji mənbələrinə çıxışı təmin etməklə, iqtisadi güclərini artırmağa çalışırlar. Bu isə geosiyasi rəqabətin intensivləşməsinə və diplomatik müzakirələrin mərkəzləşməsinə səbəb olur.

**“Bir Kəmər, Bir Yol” təşəbbüsü** Çin tərəfindən irəli sürülən bu təşəbbüs qlobal ticarət və nəqliyyat infrastrukturunu yenidən formalaşdırmağı hədəfləyir. Yeni ipək yolu kimi tanınan bu təşəbbüs vasitəsilə Asiya, Avropa və Afrikanı birləşdirən quru və dəniz dəhlizləri yaradılır. Bu layihə beynəlxalq əməkdaşlıq və diplomatiyanın genişlənməsi üçün əsas platforma rolunu oynayır.

İqlim dəyişikliyi ilə buzların əriməsi **Şimal Dəniz Yolu**nun əlçatan olmasına imkan yaradır. Bu yol, Asiya ilə Avropa arasında dəniz ticarətini qısaltmaqla, strateji əhəmiyyət qazanır. Rusiya və Çin bu yolun inkişafında fəal iştirak edir, lakin bu bölgədəki iqtisadi və ekoloji maraqlar diplomatik müzakirələr tələb edir.

Enerji resursları, xüsusilə neft və qaz, müasir diplomatiyada mühüm yer tutur. Resursların əldə olunması və nəqli üçün dövlətlər arasında əməkdaşlıq və ya rəqabət formalaşır.

Enerji kəmərləri, məsələn, **TANAP** və **Şimal Axını**, dövlətlərin iqtisadi və siyasi maraqlarını qorumaq üçün mühüm diplomatik alətlərdir. **Cənubi Qaz Dəhlizi** layihəsi, Azərbaycan və Türkiyənin iştirakı ilə, Avropanın enerji təhlükəsizliyini artırmaq məqsədini güdür. Bu layihə enerji diplomatiyası çərçivəsində beynəlxalq əməkdaşlığı təşviq edir.

Enerji resurslarına nəzarət, xüsusilə Yaxın Şərq və Mərkəzi Asiyada, geosiyasi rəqabəti artırır. Məsələn, **Qazaxıstan** və **Türkmənistan** enerji ehtiyatlarının ixracında strateji rola malikdirlər və bu dövlətlər enerji diplomatiyasını xarici siyasətlərinin əsas hissəsinə çevirirlər.

Müasir dövrdə bərpa olunan enerji mənbələri də beynəlxalq diplomatiyanın prioritetinə çevrilmişdir. Günəş və külək enerjisi sahəsində beynəlxalq əməkdaşlıq genişlənir. Məsələn, **Beynəlxalq Bərpa Olunan Enerji Agentliyi (IRENA)** bu sahədə qlobal səyləri əlaqələndirir, artırır.

Beləliklə, iqlim dəyişikliyi, ekoloji problemlər, yeni nəqliyyat dəhlizləri və enerji resursları müasir diplomatiyada coğrafiyanın əsas yeni meydanlarına çevrilmişdir. Bu amillər dövlətlər arasında həm əməkdaşlıq, həm də rəqabət mühitini formalaşdırır. Ekoloji diplomatiya və enerji siyasətləri beynəlxalq münasibətlərin əsasını təşkil edərək qlobal sabitlik və davamlı inkişaf üçün mühüm platformalar yaradır.

Coğrafiya və diplomatiya arasında sıx əlaqə mövcuddur və bu əlaqə müasir beynəlxalq münasibətlərdə mühüm rol oynayır. Dövlətlərin coğrafi mövqeləri, sərhəd məsələləri, təbii sərvətləri, iqlim şəraiti və strateji maraqları beynəlxalq diplomatik siyasətləri formalaşdırır. Müasir dövrdə coğrafiyanın diplomatik sahələrdəki rolu daha da artmışdır, çünki yeni geosiyasi meydanlar və qlobal çağırışlar diplomatik münasibətləri daha mürəkkəb və çoxşaxəli etmişdir [2].

**Geosiyasi faktorlar**, dövlətlər arasında əməkdaşlıq və ya münaqişə üçün əsas motivlərdən biridir. Sərhəd mübahisələri, təbii sərvətlərin əldə edilməsi və strateji mövqelər beynəlxalq münasibətlərə istiqamət verir. Avrasiya, Arktika və Yaxın Şərq kimi bölgələrdə coğrafiyanın diplomatik rolu xüsusi əhəmiyyət kəsb edir. Coğrafi mövqelər, ticarət yolları və enerji ehtiyatları dövlətlərin diplomatik fəaliyyətindəki prioritetləri müəyyənləşdirir.

**İqlim dəyişikliyi və ekoloji diplomatiya**, müasir diplomatiyaya yeniliklər gətirərək dövlətlərarası əməkdaşlığın yeni sahələrini açır. Ekoloji məsələlər, təbii resursların qorunması və iqlim dəyişiklikləri ilə bağlı razılaşmalar beynəlxalq diplomatiyanın əsas mövzularına çevrilib. Paris İqlim Sazişi və Arktika bölgəsindəki müzakirələr, coğrafiyanın ekoloji diplomatiyadakı rolunu göstərən nümunələrdir. Dövlətlər, ekoloji məsələləri həll etmək üçün daha çox birgə çalışmalı və bu sahədə beynəlxalq platformalarda müzakirələr aparmalıdırlar [11].

**Yeni nəqliyyat dəhlizləri və enerji siyasətləri** də müasir diplomatiyada əhəmiyyətli yer tutur. Çin tərəfindən irəli sürülən "Bir Kəmər, Bir Yol" təşəbbüsü və Şimal Dəniz Yolu kimi yeni ticarət marşrutları, dövlətlərə iqtisadi üstünlüklər qazandırır və geosiyasi rəqabəti artırır. Eyni zamanda, enerji resurslarına nəzarət, xüsusilə Avropa, Asiya və Yaxın Şərqdə beynəlxalq münasibətləri formalaşdırır. Dövlətlər enerji kəmərləri, bərpa olunan enerji və enerji təhlükəsizliyi məsələlərində birgə fəaliyyət göstərməklə qlobal diplomatiyanı gücləndirirlər.

Son nəticədə, coğrafiyanın diplomatik siyasətlərə təsiri hər zaman mövcud olmuş və müasir dövrdə daha da vacib olmaqdadır. Geosiyasi, ekoloji və enerji məsələləri dövlətlər arasında əlaqələri tənzimləyir, yeni beynəlxalq əməkdaşlıq imkanları və mübahisə sahələri yaradır. Bu səbəbdən, diplomatiyanın gələcək inkişafı coğrafiyanın təklif etdiyi yeni meydanlarda fəaliyyətin daha da intensivləşməsinə əsaslanacaqdır.

## *7.Nəticə*

**Coğrafiya və diplomatiyanın bir-birini tamamlayan münasibəti** beynəlxalq əlaqələrin inkişafında əvəzsiz rol oynayır. Coğrafi faktorlar, dövlətlərin xarici siyasətlərini müəyyən edən mühüm amillərdən biridir. Ərazi, sərhədlər, təbii resurslar və strateji mövqelər ölkələrin diplomatik qərarlarını formalaşdırır və onları beynəlxalq arenada müəyyən mövqe göstərməyə sövq edir. Coğrafiya, həmçinin diplomatik münaqişələr və əməkdaşlıq sahələrini də müəyyənləşdirir. Dövlətlər coğrafi vəziyyətlərinə görə həm strateji üstünlüklərdən yararlanır, həm də rəqabət və münaqişələrə səbəb olan potensial təhdidləri öz xarici siyasətlərində nəzərə alırlar.

Bu münasibət, coğrafiyanın təbii sərvətlər, sərhəd məsələləri, enerji təhlükəsizliyi və ticarət yolları kimi elementləri diplomatların gündəminə çevirərək, onları müxtəlif geosiyasi meydanlarda fəaliyyət göstərməyə məcbur edir. Geosiyasi əlaqələrin inkişafı, diplomatik münasibətlərin müasir dövrdə daha mürəkkəb və çoxşaxəli olmasına səbəb olmuşdur.

**Geosiyasətin gələcəkdə qlobal diplomatiyada oynayacağı rol** əhəmiyyətli dərəcədə artacaq. Dünya iqtisadiyyatının və siyasətinin qlobal xarakter alması ilə coğrafiya yalnız dövlətlərin sərhədləri ilə əlaqəli olmayacaq, eyni zamanda ekoloji, iqtisadi və texnoloji məsələlərlə də sıx inteqrasiya olunacaq. İqlim dəyişikliyi, enerji resurslarının kəsilməsi, yeni ticarət marşrutlarının açılması və strateji bölgələrdəki dəyişikliklər diplomatiyanın gündəmində daha çox yer alacaq.

Geosiyasət, gələcək diplomatiyada həm beynəlxalq əməkdaşlıq, həm də geosiyasi rəqabət baxımından mühüm rol oynayacaq. Dövlətlər öz coğrafi mövqelərini və strateji maraqlarını daha da dəqiq təhlil etməli və bu məlumatları öz xarici siyasətləri ilə əlaqələndirməlidirlər. Bu dinamik dəyişən qlobal mühitdə coğrafiya və diplomatiya arasındakı əlaqənin güclənməsi beynəlxalq münasibətlərin daha effektli və qarşılıqlı anlaşma ilə idarə olunmasına gətirib çıxaracaq.

## *8.REFERENCES*

**1.** Brzezinski, Z. (1997). *The Grand Chessboard: American Primacy and Its Geostrategic Imperatives*. Basic Books, 336 p. (In English).
**2.** Buzan, B., & Wæver, O. (2003). *Security: A New Framework for Analysis*. Lynne Rienner Publishers, 263 p. (In English).
**3.** Cohen, S. B. (2003). *Geopolitics: The Geography of International Relations*. Rowman & Littlefield, 372 p. (In English).
**4.** Dalby, S. (2009). *Geopolitics: A Very Short Introduction*. Oxford University Press, 152 p. (In English).
**5.** Harris, P. (2009). *The New Geopolitics of Energy*. Palgrave Macmillan, 320 p. (In English).
**6.** Homer-Dixon, T. (2006). *The Upside of Down: Catastrophe, Creativity, and the Renewal of Civilization*. Island Press, 410 p. (In English).
**7.** Kaplan, R. D. (2014). *Asia's Cauldron: The South China Sea and the End of a Stable Pacific*. Random House, 128 p. (In Azerbaijani).
**8.** Kissinger, H. (2014). *World Order*. Penguin Press, 368 p. (In English).
**9.** Mahan, A. T. (2003). *The Influence of Sea Power upon History, 1660–1783*. Dover Publications, 284 p. (In English).

**10.** Mearsheimer, J. J. (2001). *The Tragedy of Great Power Politics*. W. W. Norton & Company, 496 p. (In English).
**11.** Sachs, J. D. (2015). *The Age of Sustainable Development*. Columbia University Press, 504 p. (In English).

### *ƏDƏBİYYAT*

**1.** Brzezinski, Z. (1997). *The Grand Chessboard: American Primacy and Its Geostrategic Imperatives*. Basic Books, 336 p.
**2.** Buzan, B., & Wæver, O. (2003). *Security: A New Framework for Analysis*. Lynne Rienner Publishers, 263 p.
**3.** Cohen, S. B. (2003). *Geopolitics: The Geography of International Relations*. Rowman & Littlefield, 372 p.
**4.** Dalby, S. (2009). *Geopolitics: A Very Short Introduction*. Oxford University Press, 152 p.
**5.** Harris, P. (2009). *The New Geopolitics of Energy*. Palgrave Macmillan, 320 p.
**6.** Homer-Dixon, T. (2006). *The Upside of Down: Catastrophe, Creativity, and the Renewal of Civilization*. Island Press, 410 p.
**7.** Kaplan, R. D. (2014). *Asiyanın Qazanı: Cənubi Çin dənizi və Sabit Sakit Okeanın sonu*. Random House, 128 s.
**8.** Kissinger, H. (2014). *World Order*. Penguin Press, 368 p.
**9.** Mahan, A. T. (2003). *The Influence of Sea Power upon History, 1660–1783*. Dover Publications, 284 p.
**10.** Mearsheimer, J. J. (2001). *The Tragedy of Great Power Politics*. W. W. Norton & Company, 496 p.
**11.** Sachs, J. D. (2015). *The Age of Sustainable Development*. Columbia University Press, 504 p.